İNAM İNDEKSİ 03

iyun / 2020

# STM

## PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## ANALİTİK HESABAT



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

İNAM İNDEKSİ / 03
Xüsusi buraxılış

Aprel-iyun 2020

# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

Sosioloji sorğu əsasında hazırlanmış
**ANALİTİK HESABAT**

**Tədqiqat qrupu:**
Sosial-iqtisadi təhlil departamenti
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti

Bakı - 2020

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu

**Redaktor:** Aqşin Məmmədov

**Dizayner:** Qurban Cəlilov

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

ŞƏRQ-QƏRB

“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

# MÜNDƏRİCAT

**GİRİŞ**....4

**TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ**....7

ORDU QURUCULUĞU İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....8

KADR İSLAHATLARI İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....9

KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....10

İCTİMAİ-SİYASİ SABİTLİK İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....11

TƏHLÜKƏSİZLİK VƏ XARİCİ SİYASƏT İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....12

SƏHİYYƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....13

HÜQUQ-MÜHAFİZƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....14

MƏHKƏMƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....15

SOSİAL RİFAHIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....16

İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....17

REGİONAL İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....18

İQTİSADİ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....19

PANDEMİYA İLƏ MÜBARİZƏ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ....20

PREZİDENTƏ OLAN İNAM VƏ ETİMADIN DİNAMİKASI.... 22

**NƏTİCƏ**....24

# GİRİŞ

Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsinə və dinamikasının izlənilməsinə, məlum olduğu kimi, ilk olaraq Sosial Tədqiqatlar Mərkəzi tərəfindən başlanılıb. Təqdim edilən növbəti hesabat bu silsilədən olub, 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edir. Sosioloji sorğu əsasında hazırlanmış analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb.

2020-ci ilin aprel-iyun ayları bütün dünyada koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində keçib. Bu dövrün özəl xüsusiyyəti ondan ibarətdir ki, bütün dünyada pandemiya milli siyasi liderlik fenomeninin, liderlərin şəxsiyyət və keyfiyyətlərinin qlobal "stress-testinə" çevrildi. Tədqiqatçıların qənaətinə görə, bu sınaqdan qətiyyətlə çıxan ölkələr yeni reallığın tələb etdiyi islahatlarla daha da güclənəcək, yaxud əksinə, zəif və səmərəsiz rəhbərliyi olan ölkələr daha ağır vəziyyətə düşəcək, yoxsulluq, qeyri-sabitlik və iqtisadi durğunluğa qərq olacaqlar. Narahatlıq doğuran məqam həm də odur ki, ikinci qrup ölkələrin sayı birincilərdən daha çox olacaq.

Siyasi tarixdən məlumdur ki, böyük böhranların böyük də nəticələri olur. Məsələn, ABŞ-ın qlobal supergüc olaraq yüksəlməsinə əsas təməli "Böyük Depressiya" dövründən onu uğurla çıxaran Ruzvelt siyasəti oldu. Yaxud ən yeni tarixdə 2008-ci ilin qlobal maliyyə böhranı dünyada onlarla liderin siyasi səhnədən getməsinə səbəb oldu.

Şübhəsiz ki, bu tarixi məntiqə uyğun olaraq, yaxın gələcəkdə də tarixçilər hazırkı koronavirus pandemiyasının bütün nəticələrini təhlil edərək, bəzi ölkələrin məhz hazırkı böhranı başqalarından daha uğurla həll etdikləri üçün yüksəliş mərhələsinə adlamasını əsaslandıracaqlar.

İctimai rəy sorğusunun nəticələrinə əsaslanmaqla, uğur qazanan və sınaqdan daha da güclü çıxan dövlətlər arasında Azərbaycanın olmasını əminliklə söyləyə bilərik.

Bunu deməyə əsas verən dünyada pandemiyanın başladığı bir ilə yaxın müddətdə tədqiqatçı və ekspertlərin pandemiya ilə uğurlu mübarizəni müəyyən edən 3 əsas amili aşkara çıxarmasıdır:

***1.*** *Siyasi lider faktoru;*

***2.*** *Dövlətin potensial resurs, güc və imkanları;*

***3.*** *İctimai inam və etimadın mövcudluğu.*

Pandemiya böhranından çıxmağa və sonrakı güclü inkişafa təkan verəcək bu "uğur faktorları"nın 3 sütununa malik olan ölkələrdə vətəndaşların etibar etdiyi və güvəndiyi siyasi liderlər çevik strateji idarəçiliyi bərqərar etməklə, pandemiyanın vurduğu zərbələri neytrallaşdırmağa qabil olurlar. Qarşılıqlı etimadın və milli birliyin olduğu cəmiyyətlərdə bu keyfiyyətlər koronavirus fonunda tamamilə yeni dəyər yaradır, milli gücə çevrilir.

Bu gün artıq məlumdur ki, pandemiya zamanı ölkələr siyasi-əxlaqi, mənəvi seçimlərlə üz-üzə qaldı. "Vətəndaşların sağlamlığının yoxsa iqtisadiyyatın xilas ediləcəyini" seçim edərkən, müxtəlif dövlətlər müxtəlif seçimlər etdilər. Azərbaycanın dövlət başçısı bəyan etdi ki, insanların həyatından vacib heç nə ola bilməz. Beləliklə, Azərbaycan rəhbərliyinin vətəndaşların sağlamlığını, rifahını və təhlükəsizliyini strateji prioritet olaraq önə çəkməsi yaranmış vəziyyətdə verilmiş ən düzgün qərarlardan oldu.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bütün antiböhran fəaliyyətin məzmunu - iqtisadi dəstək proqramları, sosial paketlərdən tutmuş səhiyyə infrastrukturunun adaptasiya və modernləşməsinə, yeni klinikaların inşasına qədər həyata keçirilən bir çox tədbirlər məhz bu məqsədə - vətəndaşın ali dəyər kimi mərkəzdə durmasına xidmət edir.

### Azərbaycan Prezidentinin 2020-ci ilin 2-ci rübündə fəaliyyətinin əsas vektorları

❖ *Azərbaycan Silahlı Qüvvələrinin, Milli Ordunun fəaliyyətinin daha da təkmilləşdirilməsi.*

Dövlət başçısı regionda və dünyada gedən dərin geosiyasi transformasiyalar, hərbi-siyasi proseslərin son dərəcə kəskinləşməsi və milli maraqlarımız üçün mümkün təhdidləri nəzərə alaraq, Azərbaycan Silahlı Qüvvələrinin, Milli Ordunun fəaliyyətinin daha da təkmilləşdirilməsi yönündə qətiyyətli olduğunu bildirib, sözügedən proseslər fonunda hərbi xərclərə yenidən baxılmasının vacibliyini bəyan edib. Bu siyasət ictimai rəydə mütləq əksəriyyət olmaqla yüksək qiymətləndirilib.

❖ *Dövlət idarəçiliyinin zamanın çağırışlarına və böhranla mübarizə xəttinə transformasiya edilməsi.*

Pandemiya ilə mübarizədə reallaşdırılan çevik, qabaqlayıcı tədbirlər özünü doğrultdu, ən kritik ssenarilərə hazırlıq üçün dövlət idarəçiliyi səfərbər edildi. Məhz bunun sayəsində xəstəliyin nəzarət altında saxlanılmasına nail olundu. Pandemiyanın bütün dövlətləri təhdid edən "trilemması" - vətəndaşın sağlamlığı, iqtisadi dayanıqlılıq və siyasi sabitlik amillərinin balanslaşdırılması mümkün oldu. Rəyi soruşulanlar bu qənaətdə yekdildir.

❖ *Pandemiya şəraitinə baxmayaraq, dövlət başçısının islahatlar siyasəti davamlı olaraq, dönüş xarakterli, daha qətiyyətli tədbirlərlə davam edib.*

Xüsusilə də, məhkəmə-hüquq sistemində, dövlət gəlirləri sahəsində tam şəffaflığın təmin edilməsi, hesabatlılığın, yaxşı idarəçiliyin formalaşması ilə bağlı bəyan edilən islahatlar, siyasi iradənin ortaya qoyulması ictimai rəydə əhəmiyyətli əks-səda doğurub.

❖ *Azərbaycan COVID-19-la mübarizəni başlıca olaraq öz iqtisadi-maliyyə imkanları hesabına təmin edə bilib.*

Pandemiya ilə mübarizə bütün dünya üçün ağır iqtisadi-maliyyə problemlərini ortaya çıxardı. Dövlət başçısının qeyd etdiyi kimi: "Aparıcı beynəlxalq maliyyə qurumlarının verdiyi açıqlamaya görə, dünyanın 150 ölkəsindən çoxu maliyyə yardımı üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur".

Bu, Prezidentin Azərbaycan dövlətini beynəlxalq maliyyə qurumlarının və digər təşkilatların asılılığından qorumaq, dövlət müstəqilliyini bütün sahələr üzrə öz resurslarımız əsasında təmin etmək istiqamətində apardığı ardıcıl siyasətin və yorulmaz fəaliyyətin əməli bəhrəsidir. Koronavirusla mübarizə dövründə Azərbaycan Respublikası Ümumdünya Səhiyyə Təşkilatına və bir sıra ölkələrə maddi dəstək verib.

Qeyd olunduğu kimi, bir çox ölkələr yardım üçün müraciət edib və onlara nəhəng maliyyə donorları yardım edib. Məsələn, Gürcüstan koronavirusla mübarizədə xarici donorlar tərəfindən 3 milyard ABŞ dollarına yaxın maliyyə dəstəyi alan ölkələrdəndir. Pandemiya ilə mübarizəsi müsbət qiymətləndirilən Gürcüstanda bu maliyyə il bağlı olduqca miqyaslı korrupsiya faktlarının üzə çıxması hazırda qlobal mediada ən çox müzakirə edilən mövzulardandır.

❖ *Dövlət başçısının sosial-iqtisadi dəstək paketlərinin həcmi və əhatə etdiyi vətəndaşların miqyası baxımından müqayisəyəgəlməzdir.*

Azərbaycanda 5 milyona yaxın vətəndaş geniş sosial paketlə əhatə edildi; 900 min insan dövlət sektorunda çalışsa da, faktiki olaraq işləmir, dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərilib, iş yerləri qorunub. 600.000 işsiz vətəndaş, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqə dövlət tərəfindən qayğı ilə əhatə olunub.

❖ *Pandemiyaya baxmayaraq, heç bir sosial layihə dayandırılmayıb, əksinə, 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb.*

Sosial paket layihələri 4 istiqamət olmaqla 12 tədbiri əhatə edib:

***1.*** *Əmək müqaviləsi ilə işləyən 1.660.000 min vətəndaşın məşğulluğunun qorunması;*

***2.*** *İşsiz və gəlirini itirən aztəminatlı qeyri-formal işləyən şəxslərə 190 manatla bağlı ödəniş;*

***3.*** *İşsiz və qeyri-formal işləyən şəxslər üçün xüsusi olaraq yaradılan haqqı ödənilən ictimai işlər proqramı.*

Pensiya, müavinət, təqaüdlər üzrə 2 milyon şəxsi əhatə edən sosial ödənişlərin ödənilməsi Azərbaycanın minimum pensiya üzrə MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci yerdə, orta pensiya üzrə isə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerdə qərarlaşmasını təmin edib.

❖ *2020-ci ilin 2-ci rübündə pandemiya siyasətinə uyğun səhiyyə infrastrukturunun yaradılmasında tarixi tədbirlər həyata keçirilib.*

Cari ilin müvafiq rübündə respublikanın 35 rayon və şəhərində 46 xəstəxana, koronavirusa qarşı mübarizədə modul tipli 9 xəstəxana, 31 laboratoriya istismara verilib, 10 mindən artıq çarpayı yeri hazırlanıb. 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət edir. 2-ci rübdə 64 min 38 nəfər tibbi personala 58 milyon 300 min manatlıq məvacib - əməkhaqqının 3-5 misli qədər müddətli əlavələrlə ödənilib. Sorğunun nəticələrində bu tədbirlərə ictimai münasibət müvafiq olaraq müsbətdir.

**Prezidentin bəhs edilən dövrdə xarici siyasət sahəsində fəaliyyətinə ictimai reaksiya müsbətdir**

❖ Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev pandemiya ilə mübarizədə yalnız milli birlik və həmrəylik sahəsində deyil, qlobal həmrəyliyin də strateji təşəbbüs kimi irəli sürülməsinin müəllifidir.

Prezidentin bu təşəbbüsü ÜST rəhbərliyi, BMT, Aİ və s. beynəlxalq təşkilatlar, eləcə də müxtəlif dövlətlərin siyasi liderləri tərəfindən yüksək dəyərləndirilib: "Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa böyük ehtiyacı var".

Hesabat dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşü videokonfrans vasitəsilə baş tutub. Bu, dünya miqyasında COVID-19 pandemiyasına həsr olunmuş ilk Zirvə görüşü olub. Koronavirusla mübarizə istiqamətində ilk beynəlxalq platformanın yaradılması istiqamətində addım məhz Prezident İlham Əliyev tərəfindən atılıb.

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirib: "Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir".

Həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. Suma Çakrabarti vurğulayıb ki, Azərbaycan yoxsulluğun səviyyəsinin aşağı salınması tempinə görə dünyanın ən yaxşı göstəricilərindən birinə malikdir.

Onu da vurğulamaq lazımdır ki, Prezidenti İlham Əliyevin yeni ekstremal böhran - koronavirus şəraitində dövlət idarəçiliyinin təkmilləşməsinin əyani nümunəsi kimi dəfələrlə xalqla görüşlərində, ali icra orqanları ilə sosial-iqtisadi inkişaf proseslərinin təhlilində, dövlət strukturları qarşısında duran vəzifələrlə bağlı çıxışlarında təqdim etdiyi konseptual nitqləri dünyanın qlobal pandemiya bəlası ilə üzləşdiyi çətin bir dövrdə uğurlu siyasətin dərin elmi-siyasi müddəaları kimi dəyərləndirilməli, böhran menecmenti elminin zənginləşməsi baxımından dərindən öyrənilməlidir.

❖ *Beləliklə, Prezident İlham Əliyevin strateji liderlik və böhran idarəçiliyi keyfiyyətləri sayəsində 2020-ci ilin 2-ci rübü ərzində fəaliyyətinin istisna olmadan bütün sahələrində mühüm nailiyyətlər qazanılıb, qlobal böhran və aşağı neft qiymətləri şəraitində vətəndaşların sağlamlığı, sosial-iqtisadi inkişafın dayanıqlılığı, ictimai-siyasi sabitlik mühiti təmin edilib.*

❖ *Dövlət başçısının dəyişməz siyasi kursu - dayanıqlı iqtisadi müstəqillik təməli üzərində qurulmuş sarsılmaz siyasi müstəqillik prinsipi milli birliyin təminatına zəmin formalaşdırıb, yaşanan çoxşaxəli qlobal böhrandan Azərbaycan Respublikasının qarşıdakı dövrdə də minimum itkilərlə çıxmasına ictimai rəydə əminlik yaradıb.*

Təqdim edilən "İnam indeksi" - ictimai rəy sorğusuna əsaslanan analitik hesabatda bu qənaət təsdiqini tapıb.

## TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

**1.1.Tədqiqat əraziləri**

Sorğu çərçivəsində Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları əhatə olunmaqla ümumilikdə 1212 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmayıb.

**1.2. Respondentlərin seçimi**

Tədqiqat çərçivəsində respondentlərin seçiminin ilk mərhələsində hər iqtisadi rayon üzrə sorğuda iştirak edəcək respondent sayı müəyyənləşdirilib. Sorğu stasionar telefon nömrələri vasitəsilə həyata keçirilib. Hər iqdisadi rayondan sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda müvafiq iqdisadi rayondan stasionar telefon nomrəsi müvafiq bazalardan təsadüfi qaydada seçilib. Bundan sonra nəzərdə tutulmuş respondent sayının sorğuda iştirakını təmin edənə kimi seçilmiş nömrələrə zəng olunub. Sorğuda əhatə edilmiş respondent sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.8% təşkil edir.

**1.3. Tədqiqat metodu**

Tədqiqatın keçirilməsində kəmiyyət metodundan, analitik təhlildə isə müşahidə və müqayisəli təhlil metodlarından istifadə edilib.

**1.4. Sorğu anketi**

Sorğu sualları Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsində təsbit edilmiş Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin müxtəlif kombinasiyalarda qruplaşdırılaraq təqdim edilən 25 əsas və 7 sosial-demoqrafik sualdan ibarətdir. Suallar ölkə əhalisinin Prezidentin ayrı-ayrı strateji istiqamətlər üzrə cari dövr ərzində gördüyü sistemli işlərə vətəndaş münasibətini müəyyənləşdirmək məqsədilə tərtib edilib.

Ölkəmiqyaslı və genişspektrli sorğudan öncə 23-24 iyul 2020-ci il tarixlərində 25 respondentdən az olmamaq şərtilə telefon vasitəsilə sınaq tədqiqatı keçirilib. Bu zaman bütün yaş kateqoriyalarından kişi və qadın respondentlər iştirak edib.

Sınaq tədqiqatı nəticəsində sorğu anketində lazımi düzəlişlər edilib.

**1.5. Sahə işi**

Sahə işi sorğu planına uyğun olaraq 25-29 iyul 2020-ci il tarixlərində keçirilib. Telefon zəngləri saat 10:00-21:00 arasında icra edilib. Sorğunun orta keçirilmə müddəti 7 dəqiqə 26 saniyə (standart sapma isə 3 dəqiqə 35 saniyə) təşkil edib.

**1.6. Sorğunun aparılması üsulu**

Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibə üsulundan istifadə olunub. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo proqramından istifadə edilib.

**1.7. Etik prinsiplər**

Sorğu keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqqında tam məlumat verilib. Həmçinin, respondentlər sorğuda iştirakın könüllü olması, istənilən anda danışığı dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək, zəng olunan vaxt uyğun deyilsə daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumatlandırılıblar.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

**1.8. Təlimat**

Mərkəzin əməkdaşları tərəfindən intervüyerlər üçün təlimat qaydaları hazırlanıb. İntervüyerlər işə başlamamışdan əvvəl müvafiq təlimdən keçirilib.

Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazır olublar. Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

**1.9. Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram olan SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması, müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi və digər asılılıqların öyrənilməsi üçün $X^2$ və Pirson korrelyasiyası analizindən istifadə edilib.




***Qeyd: Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər (2%-ə qədər).***

## ORDU QURUCULUĞU İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Prezidentin fəaliyyət təqvimi**

***09 may 2020.*** *İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edib.*
*https://president.az/articles/38055*
***03 iyun 2020.*** *İlham Əliyev Ağdam rayonunun ərazisindəki "N" saylı hərbi hissədə olub.*
*https://president.az/articles/38990*
***25 iyun 2020.*** *İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.*
*https://president.az/articles/39338*

**Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Ordu quruculuğu istiqamətində fəaliyyətə münasibət bildirənlərin profili**




Hərbi gücün sürətli modernləşdirilməsi zərurətini ölkəmizin müharibə şəraitində olması faktoru ilə yanaşı, regional miqyasda müşahidə edilən geosiyasi dinamikalar ilə əlaqələndirə bilərik.

- Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətinə ictimai rəyin təhlili bizə onu deməyə əsas verir ki, respondentlərin mütləq əksəriyyəti, 70.7% çox səmərəli, eyni zamanda 24.6% əsasən səmərəli qiymətləndirdiyi halda, yalnız 2.5% respondent əks mövqedən çıxış edib. Ümumi respondentlərin 2.2%-i isə bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

- Ümumiyyətlə, Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi istiqamətində gördüyü işlər respondentlər tərəfindən digər fəaliyyət istiqamətləri ilə müqayisədə 70.7%-lik göstərici ilə daha yüksək qiymətləndirilib.

- Sözügedən istiqamətdə regional təhlil bizə onu deməyə əsas verir ki, Yuxari-Qarabağ regionu müqayisə etibarilə ən müsbət mövqedən çıxış etdiyi halda, mənfi rəyin ən yüksək qeydə alındığı region kimi 4.5%-lik göstərici ilə Abşeron iqtisadi rayonu fərqlənir.

- Son üç ayda Prezidentə inam və etimadının artdığını bildirən 24.6% respondentin 82.0%-i eyni zamanda dövlət başçısının ordu quruculuğu sahəsindəki fəaliyyətini də çox müsbət qiymətləndirib. Əks mövqedən çıxış edən 2.6% respondentin 27.6%-i sözügedən fikir ilə razılaşdığını bildirib ($X^2(12)=213.311$, $p<0.01$).

- Eyni zamanda Prezidentin sözügedən istiqamətdə fəaliyyətini yüksək qiymətləndirən 70.7% respondentin 73.1%-i təhlükəsizlik və xarici siyasət istiqamətində həyata keçirilən strateji tədbirləri müsbət qiymətləndirib. Cari dövrdə bu iki fəaliyyət istiqamətinin olduqca yüksək koordinasiya tələb etdiyini nəzərə alsaq, o zaman respondent rəylərinin təhlilindən əldə olunmuş nəticələrin sözügedən sahədə görülən işlərə adekvat reaksiya verdiyini təsbit etmiş olarıq ($X^2(9)=432.467$, $p<0.01$).

- Ordu quruculuğu istiqamətində fəaliyyəti yüksək qiymətləndirən 70.7% respondentin 47.1%-i Prezidentin yerlərdə baş verənlərdən əhəmiyyətli dərəcədə məlumatlı olduğu qənaətindən çıxış edib ($X^2(9)=85.237$, $p<0.01$).

- Təhlillər göstərir ki, Prezidentin ordu quruculuğu istiqamətində fəaliyyəti ilə kadr islahatları çərçivəsində həyata keçirilən tədbirlər arasında nəzərəçarpacaq statistik əlaqə (korrelyasiya) mövcuddur ($r=0.512$ ($p<0.01$)).



İstər qlobal, istərsə də milli çağırışlar dövlət idarəçiliyində yeni yanaşmanı tələb edir. Sözügedən yeni yanaşma mobil həllərə əsaslanan çevik qərarvermə kompitensiyalarını və dövlətçilik prinsiplərinə sadiq kadr siyasətini zəruriləşdirir.

- Prezidentin kadr islahatları istiqamətindəki fəaliyyətinə yönəlik sorğu nəticələrinin təhlili bizə onu deməyə əsas verir ki, rəyi öyrənilənlərin 53.9%-i çox səmərəli eləcə də 32.0%-i əsasən səmərəli mövqedən çıxış etdiyi halda, 6.5% respondent isə mənfi rəy sərgiləyib.

- Kadr islahatları istiqamətindəki fəaliyyətin regionlar üzrə rəy sorğusu üzərindən dəyərərləndirilməsi bizə ən yüksək qiymətləndirmənin Yuxari-Qarabağ (83.3%) iqtisadi rayonunda olduğunu deməyə əsas verir. Bununla yanaşı, sözügedən istiqamətdəki fəaliyyəti bilavasitə respondent rəylərinin müqayisəsi əsasında səmərəli hesab etməyən əsas iqtisadi region kimi 11.9%-lik göstərici ilə Dağlıq Şirvan fərqlənir.

- Prezidentə inam və etimadının artdığını bəyan edən 24.6% respondentin 68.6%-i dövlət başçısının kadr islahatları çərçivəsində gördüyü işlərlə bağlı tendensiyanı müsbət qiymətləndirib. Digər tərəfdən inam və etimadının azaldığını bəyan edən 2.6% respondentin analoji istiqamətdəki mövqeyi 8.0% civarında olub ($X^2(12)=211.629$, $p<0.01$).

- Dövlət başçısının kadr islahatları istiqamətində həyata keçirdiyi yeni kursu çox səmərəli qiymətləndirən 53.9% respondentin 81.2%-i korrupsiya ilə mübarizə sahəsində Prezidentin təşəbbüslərini çox müsbət qiymətləndirərək prosesi dəstəklədiyini bildirib ($X^2(8)=704.979$, $p<0.01$).

- Digər tərəfdən sözügedən istiqamətdə görülən işləri ümumilikdə çox səmərəli qiymətləndirən 53.9% respondentin 87.4%-i Prezidentin nazir və yüksək çinli məmurlarla keçirdiyi müşavirə və görüşlərin KİV-də verilməsinin onların işinin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir etdiyi qənaətindən çıxış edib ($X^2(6)=129.633$, $p<0.01$).

- Kadr islahatlarını mənfi qiymətləndirən 6.4% respondentin 74.3%-ə qədəri korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə müsbət fikir bildirdiyi halda, 18.0%-i mənfi mövqe sərgiləyib.

- Təhlillər bizə onu deməyə əsas verir ki, kadr islahatları sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər ilə korrupsiyaya qarşı mübarizə tədbirləri arasında ciddi statistik əlaqə mövcuddur (r=0.565 (p<0.01)).




## KADR İSLAHATLARI İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***04 aprel 2020.*** *Ə.M.İsmayılovun Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İcraçı direktoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36330*

***01 may 2020.*** *K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37511*

***06 may 2020.*** *Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37854*

***12 may 2020.*** *A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/38139*

***13 may 2020.*** *A.B.Qocayevin Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/38217*

***14 may 2020.*** *T.Q.Piriyevin Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/38308*

***21 may 2020.*** *S.V.Orucovun Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/38638*

***21 may 2020.*** *E.A.Rzayevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/38639*

### Prezidentin kadr islahatları istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?




### Kadr islahatları istiqamətində fəaliyyətə münasibət bildirənlərin profili



## KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Prezidentin korrupsiyaya qarşı mübarizə istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsini necə qiymətləndirirsiniz?**




**Prezidentin korrupsiyaya qarşı mübarizə istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili**




Korrupsiya ilə mübarizə Prezidentin əsas prioritetlərindən biri kimi daim diqqət mərkəzində saxlanılmaqdadır. Bu istiqamətdə istər qanunvericilik, istərsə də institusional aspektlərdə sistemli təkmilləşdirmə işləri həyata keçirilir.

- Sözügedən istiqamətdə ümumi situasiyaya nəzər salsaq görərik ki, rəyi öyrənilən respondentlərin 56.1%-i görülən işləri çox səmərəli, 27.2%-i isə əsasən səmərəli hesab etdiyi halda, 12.3% respondent bu istiqamətdə görülən işləri mənfi dəyərləndirib. Respondentlərin 4.4%-i isə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.
- Rəylərin regional bölgüsünə nəzərən qeyd edə bilərik ki, Aran regionunu təmsil edən respondentlərin əhəmiyyətli hissəsi (80.3%-i) sözügedən istiqamətdəki fəaliyyəti müsbət dəyərləndirdiyi halda, müqayisə etibarilə mənfi mövqedən çıxış edən respondentlərin çoxluq təşkil etdiyi region kimi Dağlıq Şirvan 21.4%-lik göstərici ilə seçilir.
- Prezidentə inam və etimadının artdığını vurğulayan respondentlərin (24.6%) 56.5%-i eyni zamanda ölkə başçısının korrupsiya ilə mübarizə çərçivəsində gördüyü nəticəəsaslı tədbirləri müsbət qiymətləndirib. Prezidentə olan inam və etimadının azaldığını bəyan edən 2.6% respondentin analoji istiqamətdəki mövqeyi 20.7% səviyyəsində təsbit edilib ($X^2(4)=113.442$, $p<0.01$).
- Bununla yanaşı, ictimai rəyə əsaslanaraq Prezidentin korrupsiya ilə mübarizə tədbirləri çərçivəsində verdiyi strateji qərarlara müsbət mövqedən yanaşan 56.1% respondentin 47.8%-i ölkə başçısının yerlərdə baş verənlərlə bağlı operativ məlumatlara malik olduğunu qeyd etdiyi halda, 4.1%-i isə proseslə bağlı əks mövqedə olduğunu bildirib ($X^2(9)=81.718$, $p<0.01$).
- Korrupsiya ilə mübarizə çərçivəsində ökə başçısının bilavasitə iştirakı ilə yanaşı, digər dövlət qrumlarının da koordinasiyalı şəkildə fəaliyyətini nəzərə alaraq sözügedən istiqamətdə müsbət mövqedən çıxış edən 56.1% respondentin 36.5%-i Nazirlər Kabinetinə ($X^2(12)=217.416$, $p<0.01$), 33.4%-i isə Parlamentə ($X^2(11)=163.728$, $p<0.01$) etibar etməsi ilə bağlı qənaətini bölüşüb.
- Təhlillərə əsaslanaraq qeyd edə bilərk ki, korrupsiyaya qarşı mübarizə tədbirləri ilə hüquq-mühafizə orqanları sahəsində islahatlar arasında ciddi statistik korrelyasiya mövcuddur ($r=0.499$ ($p<0.01$)).



Ölkə üzrə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində görülən işlər daxili siyasətin əsas determinantı olmaqla ölkəyə xarici investisiyaların və digər istehsal faktorlarının cəlb edilməsi baxımından olduqca strateji xarakter kəsb edir.

Məhz bu istiqamətdə dövlət başçısının fəaliyyətinə ictimai münasibətə nəzər saldıqda sorğu iştirakçılarının 59.0%-nin çox səmərəli, 32.1%-i əsasən səmərəli movqedən çıxış etdiyini təsbit etmiş oluruq. 5.3% respondent isə mənfi mövqedən çıxış edib. Qeyd etmək istərdik ki, rəyi öyrənilənlərin 3.6%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

- Rəy sorğusu çərçivəsində əldə olunan nəticələrin regional strukturuna diqqət etdikdə sözügedən istiqamət üzrə ən yüksək respondent məmnuniyyəti 84.8%-lik göstərici Yuxarı-Qarabağ iqtisadi rayonunda müşahidə edildiyi halda, müqayisə etibarilə ən çox mənfi rəyə malik region kimi 9.55%-lik göstərici ilə Dağlıq Şirvan fərqlənir.
- Prezidentə inam və etimadının artdığını bəyan edən respondentlərin (24.6%) 68.7%-i ölkə miqyasında ictimai-siyasi sabitlik sahəsində həyata keçirilən təşəbbüsləri müsbət qiymətləndirib. Prezidentə olan inam və etimadının azaldığını bəyan edən respondentlərin isə 34.5%-ə qədəri bu istiqamətdəki fəaliyyəti müsbət dəyərləndirib ($X^2(12)=89.994$, $p<0.01$).
- Sorğu çərçivəsində Prezidentin ictimai-siyasi sabitlik sahəsində həyata keçirdiyi strateji tədbirləri çox səmərəli qiymətləndirən 59.0% respondentin 79.7%-i ölkə başçısının sosial rifahın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirləri müsbət qiymətləndirib ($X^2(9)=390.288$, $p<0.01$).
- Prezidentin ictimai-siyasi sabitlik istiqamətində həyata keçirdiyi tədbirləri çox səmərəli qiymətləndirən 59.0% respondentin 85.0%-ə qədəri korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi proseslərinə müsbət mövqe sərgiləyib ($X^2(12)=83.973$, $p<0.01$).
- Ölkə başçısının ictimai-siyasi sabitlik istiqamətində həyata keçirdiyi tədbirləri çox səmərəli qiymətləndirən 59.0% respondentin 32.9%-i Parlamentə ($X^2(12)=140.051$, $p<0.01$) və 38.2%-i isə yerli icra hakimiyyəti orqanlarına ($X^2(12)=135.896$, $p<0.01$) etibar etməsi ilə bağlı qənaətini bölüşüb.
- Prezidentin ictimai-siyasi sabitlik istiqamətində həyata keçirdiyi tədbirlər ilə xarici siyasət sahəsində reallaşdırılan strateji tədbirlər arasında əhəmiyyətli statistik korrelyasiya mövcuddur ($r=0.555$ ($p<0.01$)).




## İCTİMAİ-SİYASİ SABİTLİK İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Prezidentin ictimai-siyasi sabitlik istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Prezidentin ictimai-siyasi sabitlik istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili**



## TƏHLÜKƏSİZLİK VƏ XARİCİ SİYASƏT İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***10 aprel 2020.*** *İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəlade Zirvə görüşü keçirilib.* *https://president.az/articles/36412*

***18 iyun 2020.*** *İlham Əliyev Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində iştirak edib.* *https://president.az/articles/39235*

***30 iyun 2020.*** *İlham Əliyev və Ümumdünya Turizm Təşkilatının Baş katibi arasında videokonfrans keçirilib.* *https://president.az/articles/39379*

**Prezidentin təhlükəsizlik və xarici siyasət istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Prezidentin təhlükəsizlik və xarici siyasət istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili**




Ölkəmizin yerləşdiyi geosiyasi mövqe və müharibə vəziyyəti Prezidentin təhlükəsizlik və xarici siyasət istiqamətində həyata keçirdiyi strateji kursun bütün mümkün ssenariləri nəzərə almaqla maksimum çevik qərarları özündə birləşdirir. Digər tərəfdən iqtisadi müstəqilliyin təmin edilməsi istiqamətində iki və çoxtərəfli əməkdaşlıq formatlarını da daim dövlət maraqları əsasında dizayn etmək də olduqca starteji yanaşma tələb edir.

- Cari dövr ərzində dövlət başçısının təhlükəsizlik və xarici siyasət istiqamətindəki fəaliyyətinin ictimai rəy əsasında qiymətləndirilməsindən əldə olunan nəticələri aşağıdakı kimi xarakterizə edə bilərik. Rəyi öyrənilənlərin 54.0%-i bu istiqamətdə görülən işləri çox səmərəli, 28.9%-i isə əsasən səmərəli qiymətləndirdikləri halda, 6.45% respondent əks mövqedən çıxış edib. Digər maraqlı bir məqam kimi isə 10.7% respondentin sözügedən istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirməsi ilə bağlıdır.
- Təhlükəsizlik və xarici siyasət istiqamətində Prezidentin fəaliyyətinin regionlar üzrə dəyərləndirilməsinə diqqət etsək, nəticələr bizə onu deməyə əsas verir ki, 82.8%-lik göstərici ilə Yuxarı-Qarabağ iqtisadi rayonu bu istiqamətdə fəaliyyəti olduqca yüksək qiymətləndirməklə ön planda qərarlaşsa da, əks mövqedən çıxış edən respondentlərin çoxluq təşkil etdiyi region kimi Dağlıq Şirvan 11.9%-lik göstərici ilə ilk sırada qərarlaşıb.
- Xarici siyasət ölkə başçısının fəaliyyətinin əsas istiqamətlərindən biri kimi strateji əhəmiyyətə malik olmaqla rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi (54.0% çox səmərəli, 28.9% əsasən səmərəli) tərəfindən müsbət dəyərləndirilib. Məhz bu respondentlərin 59.6%-i Prezidentə inam və etimadının artdığını bildirib. Əks mövqedən dəyərləndirsək, inam və etimadının azaldığını bəyan edən 4.3% respondentin isə 23.1%-i təhlükəsizlik və xarici siyasət sahəsində görülən işləri müsbət qiymətləndirib ($X^2(12)=137.904$, $p<0.01$).
- Prezidentin təhlükəsizlik və xarici siyasət istiqamətindəki fəaliyyətini çox səmərəli qiymətləndirən 54.0% respondentin 79.7%-i həmçinin beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirləri müsbət dəyərləndirib ($X^2(9)=578.442$, $p<0.01$).
- Dövlət başçısının təhlükəsizlik və xarici siyasət sahəsində həyata keçirdiyi strateji tədbirlər ilə iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər arasında əhəmiyyətli statistik korrelyasiya mövcuddur ($r=0.520$ ($p<0.01$)).



Sorğu çərçivəsində Prezidentin fəaliyyətinin qiymətləndirildiyi dövr COVID-19 dalğasının dağıdıcı təsirləri ilə istər qlobal, istərsə də lokal müstəvidə səhiyyə sferasında əsas gündəm maddəsini formalaşdırıb. Bu çərçivədə dövlət başçısının insan (vətəndaş) faktorunu antiböhran strategiyasının mərkəzi determinantı kimi bəyan etməsi səhiyyə sisteminə yönəlik tənzimləyici və dəstəkləyici tədbirləri daha da mobilləşdirdi. Nəticə etibarilə səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində kifayət qədər əhəmiyyətli təsbitlər edildi.

- Məhz bu istiqamətdə rəyi öyrənilən respondentlərin 46.7%-i görülmüş işləri çox səmərəli qiymətləndirdikləri halda, 32.6%-i isə əsasən səmərəli qiymətləndirib. 17.1% respondent əks mövqedən çıxış edib. Ümumi respondentlərin sadəcə 3.6%-i bu istiqamətdə fikir bildirməkdən çəkinib.

- Səhiyyə sistemində həyata keçirilən islahatların regional miqyasını nəzərə alaraq sözügedən istiqamətdə dövlət başçısının fəaliyyətinə münasibətin regionlar üzrə dəyərləndirilməsindən əldə olunan nəticələrə gəldikdə isə aşağıdakı mənzərə yaranır: Yuxarı-Qarabağ iqtisadi rayonuna aid respondentlərin mütləq əksəriyyətinin (74.0%-nin) müsbət mövqedən çıxış etməsi region olaraq ilk pillədə qərarlaşmasına səbəb olduğu halda, Bakı şəhəri üzrə respondentlərin 29.6%-nin əks mövqedən çıxış etməsi səbəbindən sözügedən region son pillədə qərarlaşıb.

- Prezidentə inam və etimadının artdığını bəyan edən 24.6% respondentin 57.5%-i səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində görülən işləri müsbət qiymətləndirib. Digər tərəfdən Prezidentə olan inam və etimadının azaldığını bildirən respondentlərin isə 22.2%-ə qədəri analoji istiqamətdə görülən işləri müsbət dəyərləndirib ($X^2(12)=101.485$, $p<0.01$).

- Sözügedən istiqamətdə həyata keçirilən modernləşdirmə təşəbbüslərini çox səmərəli qiymətləndirən 46.7% respondentin 53.2%-i Prezidentin yerlərdə baş verən hadisələrdən əhəmiyyətli dərəcədə məlumatlı olduğunu qeyd edib ($X^2(3)=118.365$, $p<0.01$).

- Prezidentin səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirdiyi sistemli işləri çox səmərəli qiymətləndirmiş respondentlərin 78.3%-i eyni zamanda ölkə başçısının korrupsiya ilə mübarizə istiqamətində tətbiq etdiyi yanaşmanı müsbət dəyərləndirib ($X^2(12)=312.284$, $p<0.01$).

- Sözügedən istiqamət ilə əhəmiyyətli statistik əlaqə Prezidentin iqtisadi inkişafın təmin edilməsi sahəsində həyata keçirdiyi strateji tədbirlərlə təsbit edilib ($r=0.505$ ($p<0.01$)).




## SƏHİYYƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***06 aprel 2020.*** *İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib. - https://president.az/articles/36333*

***07 aprel 2020.*** *Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36349*

***09 aprel 2020.*** *Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36384*

***07 may 2020.*** *İlham Əliyev modul tipli ilk xəstəxana kompleksinin açılışında iştirak edib. - https://president.az/articles/37923*

***12 may 2020.*** *İlham Əliyev Sumqayıtda "Gilan Tekstil Park" MMC-in tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak edib. - https://president.az/articles/38153*

***09 iyun 2020.*** *İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. - https://president.az/articles/39064*

***24 iyun 2020.*** *İlham Əliyev Gəncə şəhərində modul tipli xəstəxananın açılışında iştirak edib. - https://president.az/articles/39310*

***25 iyun 2020.*** *Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/39332*

### Prezidentin səhiyyə sisteminin modernləşdirilməsi istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?




### Prezidentin səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində fəaliyyətinə



## HÜQUQ-MÜHAFİZƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

Təhlillər göstərir ki, Prezidentin hüquq-mühafizə sisteminin modernləşdirilməsi istiqamətindəki fəaliyyətindən məmnunluğunu ifadə edən respondentlər ümumi rəyi soruşulanların əhəmiyyətli hissəsini (52.6% çox səmərəli, 32.0% əsasən səmərəli) təşkil edir. Əks mövqedən rəy bildirən respondentlər isə 7.35%-lik seqmenti özündə əks etdirir. Qeyd etmək lazımdır ki, təqribən bir o qədər respondent (8.2%) isə bu istiqamətdə görülən işlərlə bağlı fikir bildirməkdə çətinlik çəkib.

- Regional müstəvidə sözügedən istiqamət üzrə nəticələrə diqqət etsək məmnunluq səviyyəsinin yüksək olduğu iqtisadi rayon kimi Yuxarı-Qarabağ 76.5%-lik göstərici ilə ilk pillədə qərarlaşdığı halda, ən çox mənfi münasibət bildirən region kimi isə Abşeron 11.5%-lik göstərici ilə fərqlənir.

- Tədqiqat çərçivəsində Prezidentə inam və etimadının artdığını bildirən 24.6% respondentlərin 65.4%-i hüquq-mühafizə orqanlarında həyata keçirilən islahatlardan məmnun qaldığını ifadə etdiyi halda, dövlət başçısına inam və etimadının azaldığını qeyd edən 2.6% respondentin isə eyni istiqamətdə həyata keçirilən tədbirlərdən razılıq göstəricisi 28.0% civarında olub ($X^2(12)=171.760$, $p<0.01$).

- Prezidentin hüquq-mühafizə sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirdiyi sistemli islahatları çox səmərəli qiymətləndirən 52.6% rəyi öyrənilənlərin 79.2%-i korrupsiyaya qarşı mübarizə istiqamətində görülən işləri yüksək qiymətləndirib ($X^2(9)=453.010$, $p<0.01$).

- Digər tərəfdən ölkə başçısının hüquq-mühafizə orqanlarının modernləşdirilməsi istiqamətində fəaliyyətini müsbət qiymətləndirən respondentlərin mütləq əksəriyyəti Prezidentin məhkəmə sistemindəki islahat təşəbbüslərini əhəmiyyətli dərəcədə (78.7%) dəstəklədiyini bildirib. Sözügedən istiqamətdə həyata keçirilən tədbirləri mənfi qiymətləndirən 7.3% respondentin isə 5.3%-ə qədəri məhkəmə islahatlarını müsbət dəyərləndirib ($X^2(1)=344.369$, $p<0.01$).

- Ölkə başçısının hüquq-mühafizə orqanlarının modernləşdirilməsi sahəsində həyata keçirdiyi məqsədyönlü siyasətini müsbət qiymətləndirən 52.6% respondentin 87.1%-i eyni zamanda korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsini müsbət dəyərləndirib ($X^2(12)=179.242$, $p<0.01$).

- Hüquq-mühafizə sistemində həyata keçirilən modernləşdirmə tədbirləri ilə əhəmiyyətli statistik əlaqə (korrelyasiya) ictimai-siyasi sabitlik istiqamətində görülən işlərlə təsbit edilib (r=0.551 ($p<0.01$)).

**Prezidentin hüquq-mühafizə sisteminin modernləşdirilməsi istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Prezidentin hüquq-mühafizə sisteminin modernləşdirilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili**






Məhkəmə sistemində həyata keçirilən islahatlar 2019-cu ilin sonlarından etibarən yeni dinamika üzrə inkişaf etməkdədir. Bu dinamikanın inkişaf trayektoriyasına diqqət etsək son dövrlər ölkə miqyasında ixtisaslaşmış məhkəmələrin və mediasiya institutlarının formalaşması tendensiyası diqqət çəkməkdədir. Ümumiyyətlə, məhkəmə sisteminin modernləşdirilməsi Prezidentin əsas prioritetlərindən biri kimi qalmaqda davam edir.

- Ümumi situasiyaya diqqət etdikdə rəyi öyrənilənlərin 37.6%-i bu istiqamətdə görülən işləri çox səmərəli, 30.5%-i isə əsasən səmərəli qiymətləndirib. Respondentlərin sadəcə 9.9%-i əks mövqedən fikir bildirsə də, 22.0%-i bu məsələ ilə bağlı mövqe bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Regional aspektdən respondent rəylərinin dəyərləndirilməsinə diqqət etdikdə ən çox məmnuniyyət bildirən region kimi 73.9%-lik göstərici ilə Yuxarı-Qarabağ iqtisadi rayonu fərqləndiyi halda, ən çox məmnun olmayan respondentlərin isə 17.0%-lik göstərici ilə Quba-Xaçmaz iqtisadi rayonunu təmsil etdiyini görə bilərik.

- Aparılmış ictimai rəy araşdırmalarının nəticələrinə əsasən qeyd edə bilərik ki, Prezidentə olan inam və etimadının artdığını bəyan edən respondentlərin 24.6%-i məhkəmə sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatları məqbul hesab edir. Digər tərəfdən dövlət başçısına olan inam və etimadının azaldığını bəyan edən 2.6% respondentin də 14.6%-i sözügedən istiqamətdə həyata keçirilən tədbirlərə müsbət yanaşıb. ($X^2(12)=100.661$, $p<0.01$).

- Daha bir strateji məqam ondan ibarətdir ki, məhkəmə sisteminin modernləşdirilməsi təşəbbüslərini çox səmərəli qiymətləndirən 37.6% respondentin 47.8%-i cari dövr üçün məhkəmələrə etibar etdiyini bildirdiyi halda, 28.7% respondent əsasən etibar etdiyini qeyd edib ($X^2(12)=330.888$, $p<0.01$). Qeyd etmək istərdik ki, Sosial Tədqiqatlar Mərkəzinin əvvəlki sorğularında bu göstərici 49.0% civarında təsbit edilib.

- Prezidentin qətiyyətli məhkəmə islahatlarını çox səmərəli qiymətləndirən 37.6% respondentin 88.6%-i korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi faktlarını müsbət qiymətləndirib ($X^2(12)=109.186$, $p<0.01$).

- Sözügedən istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirləri çox səmərəli qiymətləndirən respondentlərin 55.7%-i Prezidentin yerlərdə baş verənlərlə bağlı tam məlumatlı olduğunu, 36.4%-i isə qismən məlumatlı olduğu bildirib ($X^2(9)=128.821$, $p<0.01$).

- Məhkəmə sisteminin modernləşdirilməsi təşəbbüsləri ilə ciddi statistik əlaqənin mövcudluğu hüquq-mühafizə orqanları istiqamətində həyata keçirilən tədbirlərlə əlaqəli olduğu müəyyənləşdirilmişdir ($r=0.696$ ($p<0.01$)).




## MƏHKƏMƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***01 may 2020.*** *K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37511*

***06 may 2020.*** *Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37854*

***06 may 2020.*** *Apellyasiya məhkəmələrinin məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37856*

***06 may 2020.*** *Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/37857*

### Prezidentin məhkəmə sisteminin modernləşdirilməsi istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz?




### Prezidentin məhkəmə sisteminin modernləşdirilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili



## SOSİAL RİFAHIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***06 aprel 2020.*** *Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36336*

***24 aprel 2020.*** *İlham Əliyev 3042 məcburi köçkün ailəsi üçün yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olub. - https://president.az/articles/37016*

***19 may 2020.*** *İlham Əliyev 3 saylı DOST mərkəzinin açılışında iştirak edib. - https://president.az/articles/38535*

***25 may 2020.*** *İlham Əliyev Şamaxı şəhərində və rayonun Meysəri kəndində körpələr evi-uşaq bağçalarının açılışında iştirak edib. - https://president.az/articles/38771*

***25 may 2020.*** *İlham Əliyev Şamaxıda tikilən çoxmənzilli binalarda yaradılan şəraitlə tanış olub. - https://president.az/articles/38772*

***28 may 2020.*** *İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında iştirak edib. - https://president.az/articles/38814*

***03 iyun 2020.*** *İlham Əliyev Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında iştirak edib. - https://president.az/articles/38997*

***24 iyun 2020.*** *İlham Əliyev Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olub. - https://president.az/articles/39302*

***24 iyun 2020.*** *İlham Əliyev Samux rayonunda məcburi köçkünlər üçün inşa edilən yaşayış məhəlləsinin tikintisi ilə tanış olub. - https://president.az/articles/39329*

### Prezidentin sosial rifahın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirləri necə qiymətləndirirsiniz?




### Prezidentin sosial rifahın təmin edilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili




Sosial rifahın təmin edilməsi bu istiqamətdə aparılan siyasətin optimal koordinasiyası və planlamasını tələb edir. Sosial rifahın yüksəldilməsi və bu istiqamətdə inklüzivliyin təmin olunması dövlət başçısının siyasi kursunun əsas vektorial istiqamətlərindən biri kimi diqqət çəkməkdədir. Pandemiya şəraitində bu istiqamətə Prezidentin yanaşması öz spesifikliyi ilə fərqlənməkdədir.

- Sorğunun nəticələrinin ümumi dəyərləndirilməsi bizə onu deməyə əsas verir ki, respondentlərin 61.1%-i bu istiqamətdə görülən işləri və təşəbbüsləri çox səmərəli dəyərləndirdikləri halda, 29.9%-i əsasən səmərəli qiymətləndirib. Ümumi respondentlərin sadəcə 6.7%-i əks mövqedən çıxış edib. Sözügedən istiqamətdə regional rəylərə diqqət etdikdə Yuxarı-Qarabağ iqtisadi rayonunun müsbət kontekstdə fərqləndiyini görürük. Əks mövqeli respondent rəylərinin digərləri ilə müqayisədə yüksək olduğu region kimi isə Bakı şəhəri 15.4%-lik göstərici ilə fərqlənir.

- Araşdırmaların əsas indikatoru ilə sözügedən sahədə həyata keçirilən tədbirlərin təhlilinə əsasən qeyd edə bilərik ki, Prezidentə inam və etimadının artdığını bildirən 24.6% respondentin 73.1%-i sosial rifahın təmin edilməsi istiqamətində həyata keçirilən orta və uzunmüddətli strateji çağırışları müsbət qiymətləndirdiyi halda, inam və etimadının azaldığını qeyd edən 2.6% respondentin sözügedən istiqamətdə həyata keçirilən tədbirlərə müsbət yanaşma sərgiləyən hissəsi 13.3% səviyyəsindədir ($X^2(12)=274.287$, $p<0.01$).

- Prezidentin sosial rifahın yüksəldilməsi istiqamətində həyata keçirdiyi və müxtəlif alt istiqamətləri özündə əks etdirən məqsədyönlü tədbirlərini çox səmərəli qiymətləndirən 61.1% respondentin 78.5%-i ölkə başçısının iqtisadi inkişafın təmin edilməsi istiqamətindəki proqram xarakterli təşəbbüslərini də müsbət dəyərləndirib ($X^2(9)=941.839$, $p<0.01$).

- Ölkə başçısının sözügedən istiqamətlə bilavasitə bağlı olan və regional inkişafın təmin olunması istiqamətində həyata keçirdiyi dayanıqlı inkişaf strategiyasına ictimai münasibət 76.0%-nin müsbət rəyi ilə xarakterizə edilir ($X^2(9)=521.796$, $p<0.01$).

- Bu siyasət təşəbbüslərini müsbət perspektivdən dəyərləndirən rəyi öyrənilənlərin 40.1%-i yerli icra hakimiyyəti orqanlarına etibar etməsi qənaətindən çıxış edib ($X^2(12)=138.267$, $p<0.01$). Digər tərəfdən isə eyni respondent seqmenti Prezidentin müvafiq qurumların rəhbərləri və nazirlərlə keçirdiyi görüşlərin KİV-də işıqlandırılmasının onların işinin səmərəli təşkilinə əhəmiyyətli şəkildə müsbət təsir göstərdiyi (87.0%) fikrini təsdiq edib ($X^2(6)=147.184$, $p<0.01$).

- Sosial rifahın təmin edilməsi istiqamtində həyata keçirilən Prezident təşəbbüsləri ilə ciddi statistik əlaqə (korrelyasiya) regional inkişafın təmin edilməsi ilə bağlı tədbirlərlə əlaqədardır ($r=0.553$ ($p<0.01$)).



Pandemiya səbəbindən iqtisadiyyatın müxtəlif sektorlarının karantin tələbləri əsasında fəaliyyətini məhdudlaşdırması bu sahədə də spesifik dəstək tədbirlərinin tətbiqini zəruriləşdirir. Ölkə başçısının sözügedən dövr üzrə iqtisadi inkişafın təmin edilməsinə yönəlik konseptual yanaşmaları həmdə post-pandemiya dövrü üçün hesablanıb.

- İqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən Prezident təşəbbüsləri 50.7% respondent tərəfindən çox səmərəli qiymətləndirildiyi halda, 37.1% rəyi öyrənilən tərəfindən əsasən səmərəli dəyərləndirilib. Digər tərəfdən 6.4% respondent bu istiqamətdə görülən işləri mənfi, 5.9% respondent isə bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Sözügedən istiqamət üzrə Yuxarı-Qarabağ iqtisadi rayonu 86.0%-lik göstərici ilə ən müsbət rəy bildirən regionların önündə gəldiyi halda, mənfi rəyin yüksək olduğu region kimi Abşeron iqtisadi rayonu 15.5%-lik göstərici ilə fərqlənir.

- Qlobal iqtisadi qeyri-müəyyənliklərin hökm sürdüyü bir dövrdə ölkə başçısına inam və etimadın dinamikasına təsir göstərən ən önəmli sub-indikatorlardan biri kimi iqtisadi inkişaf determinantı olduqca strateji əhəmiyyət kəsb edir. Məhz bu kontekstdən çıxış edərək qeyd edə bilərik ki, Prezidentə inam və etimadının artdığını bildirən (24.6%) respondentlərin 62.1%-i iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən strateji konseptləri müsbət qiymətləndirib. İnam və etimadının azaldığını bəyan edən 2.6% respondentin də 20.0%-i bununla həmfikir olduğunu bildirib ($X^2(12)=162.910$, $p<0.01$).

- Prezidentin iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyi strateji yanaşmasını çox səmərəli qiymətləndirən 50.7% respondentin əhəmiyyətli hissəsi (83.8%) məhz bu təşəbbüslərin əsas oriyentrlərindən biri kimi qiymətləndirilən regional inkişaf təbirlərini dəstəklədiyini bildirib ($X^2(12)=790.739$, $p<0.01$).

- Sözügedən istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirləri və strateji konseptləri çox səmərəli dəyərləndirən respondentlərin 42.9%-i Nazirlər Kabinetinin bu istiqamətdə reallaşdırdığı tamamlayıcı təşəbbüsləri təqdirəlayiq qiymətləndirib ($X^2(12)=242.430$, $p<0.01$).

- Prezidentin iqtisadi inkişafın təmin edilməsi istiqamətindəki təşəbbüsləri ilə məhkəmə sistemində həyata keçirilən islahatlar arasında yüksək statistik əlaqə müəyyənləşdirilib ($r=0.553$ ($p<0.01$)).




## İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***14 aprel 2020.*** *İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. - https://president.az/articles/36526*
***03 iyun 2020.*** *Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı zavodu istifadəyə verilib. - https://president.az/articles/38996*
***24 iyun 2020.*** *İlham Əliyev Gəncədə tikinti materialları istehsalı zavodunun açılışında iştirak edib. - https://president.az/articles/39301*
***24 iyun 2020.*** *İlham Əliyev Samuxda "Aqro Dairy" MMC-nin aqroparkının fəaliyyəti ilə tanış olub. - https://president.az/articles/39331*
***22 may 2020.*** *Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - https://president.az/articles/38706*
***04 iyun 2020*** *Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası. - https://president.az/articles/39024*

**Prezidentin iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirləri necə qiymətləndirirsiniz?**




### Prezidentin iqtisadi inkişafın təmin edilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili



## REGİONAL İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Prezidentin fəaliyyət təqvimi**

***03 aprel 2020.*** *İlham Əliyev Bakı-Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən işlərlə tanış olub. - https://president.az/articles/36313*

***25 may 2020.*** *İlham Əliyevin Şamaxı rayonuna səfəri. - https://president.az/articles/38766*

***03 iyun 2020.*** *İlham Əliyev Tərtər rayonuna səfərə gəlib. - https://president.az/articles/38973*

***03 iyun 2020.*** *İlham Əliyev Ağcabədi rayonunda səfərdə olub. - https://president.az/articles/38994*

***24 iyun 2020.*** *İlham Əliyev Gəncə şəhərinə səfərə gəlib https://president.az/articles/39300*

***24 iyun 2020.*** *İlham Əliyev Samux rayonuna səfərə gəlib https://president.az/articles/39328*

***24 iyun 2020.*** *İlham Əliyev Mingəçevir şəhərinə səfərə gəlib. - https://president.az/articles/39336*

**Prezidentin regional inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirləri necə qiymətləndirirsiniz?**




**Sizcə, Prezident yerlərdə baş verənlər barədə nə dərəcədə məlumatlıdır?**




### Prezidentin regional inkişafın təmin edilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili




Regional inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən klasterləşmə təşəbbüsləri və müvafiq regionların iqtisadi potensiallarının optimal dəyərləndirilməsi ölkə başçısının daima diqqət mərkəzindədir.

- Rəy sorğusunun ilkin nəticələrinə əsasən qeyd edə bilərik ki, rəyi öyrənilənlərin 50.8%-i bu istiqamətdə Prezidentin təşəbbüslərini olduqca səmərəli qiymətləndirdiyi halda, 35.2% respondent əsasən səmərəli mövqedən çıxış edib. 6.4% respondent isə əks mövqedən çıxış edib. Digər tərəfdən respondentlərin 5.9%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.
- Regional inkişaf ilə bağlı məmnuniyyətin coğrafi dinamikasına diqqət etdikdə Yuxarı-Qarabağ iqtisadi rayonu (84.4%) müsbət mövqeyi yüksək olan region kimi fərqləndiyi halda, mənfi fikir bildirmiş respondentlərin çoxluq təşkil etdiyi region kimi Lənkəran iqtisadi rayonu (21.7%) fərqlənir.
- Regional inkişafın təmin edilməsi ölkə başçısının əsas strateji hədəflərindən biri kimi artıq uzun müddətdir ki, diqqət mərkəzində saxlanılmaqdadır. Təhlillər göstərir ki, bütün dövrlər üçün bu indikator Prezidentə olan inam və etimadın formalaşmasında həlledici faktor kimi aktualdır. Cari qiymətləndirmə zamanı dövlət başçısına inam və etimadının artdığını bildirən respondentlərin 63.1%-i regional inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən sistemli islahatları müsbət qiymətləndirdiyi halda, inam və etimadının aşağı olduğunu bəyan edən respondentlərin 11.1%-i sözügedən istiqamətdə görülən işləri müsbət dəyərləndirib ($X^2(12)=149.428$, $p<0.01$).
- Regional inkişaf sahəsində görülən işləri çox səmərəli dəyərləndirən 50.8% respondentin 42.5%-i dövlət başçısının strateji qərarlarının regionlarda bilavasitə icraçısı olan yerli icra hakimiyyətlərinin fəaliyyətinə etibar edir ($X^2(12)=174.583$, $p<0.01$).
- Prezidentin regional inkişaf istiqamətindəki fəaliyyətini yüksək dəyərləndirən respondentlərin 87.2%-i korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi faktlarını müsbət qiymətləndirib ($X^2(12)=95.926$, $p<0.01$).
- Sözügedən istiqamətdə həyata keçirilən məqsədyönlü təşəbbüsləri çox səmərəli qiymətləndirən 50.8% respondentin 54.1%-i Prezidentin yerlərdə baş verənlərlə bağlı tam məlumatlı olduğunu, 39.4%-i isə qismən məlumatlı olduğunu düşünür ($X^2(12)=201.931$, $p<0.01$).
- Bu kontekstdə reallaşdırılan tədbirlər ilə əhəmiyyətli statistik əlaqənin olduğu istiqamət kimi sosial rifahın təmin edilməsi sahəsində Prezident təşəbbüsləri özünü əks etdirməkdədir ($r=0.553$ ($p<0.01$)).



Sorğunun nəticələrinin təhlili əsasında qeyd edə bilərik ki, rəyi öyrənilənlərin 53.4%-i Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirləri çox səmərəli, 31.1%-i isə əsasən səmərəli qiymətləndirib. Əks mövqedən çıxış edən respondentlər isə ümumi rəyi soruşulanların 4.0%-ni təşkil edir. 11.6% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini vurğulayıb.

- Regional vəziyyətə gəldikdə isə Yuxarı-Qarabağ iqtisadi rayonuna aid respondentlərin əhəmiyyətli hissəsi (87.5%-i) iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətindəki Prezident təşəbbüslərini müsbət qiymətləndirdiyi halda, mənfi mövqenin yüksək olduğu region kimi Bakı şəhəri 7.6%-lik göstərici ilə fərqlənir.
- Beynəlxalq iqtisadi əməkdaşlığın periodik olaraq dizayn edilməsi orta və uzunmüddətli milli maraqların təminatı baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu istiqamət xarici, eləcə də iqtisadi siyasətin kəsişdiyi maraqlar əsasında ölkə başçısına olan inam və etimadın dinamikasına əhəmiyyətli şəkildə təsir göstərən faktorlardan biri kimi qiymətləndirilir. Sorğunun nəticələrinin təhlili bizə onu deməyə əsas verir ki, Prezidentə inam və etimadının yüksək olduğunu bildirən respondentlərin 54.2%-i beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işləri də müsbət qiymətləndirir. Dövlət başçısına olan inam və etimadının aşağı olduğunu bildirən respondentlərin də 16.7%-i bu fikir ilə razılaşdığını bildirib ($X^2(12)=147.669$, $p<0.01$).
- Sözügedən istiqamətdə Prezidentin təşəbbüslərini çox səmərəli qiymətləndirən 53.4% respondentin 79.7%-i iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərə müsbət rəy bildirib ($X^2(9)=790.113$, $p<0.01$).
- Bu istiqamətdə görülən işləri əhəmiyyətli dərəcədə müsbət qiymətləndirən respondentlərin 40.6%-i Nazirlər Kabinetinin sözügedən istiqamətdə dəstəkləyici rolunu yüksək qiymətləndirib. ($X^2(12)=159.640$, $p<0.01$). Beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi istiqamətində əhəmiyyətli səlahiyyət və töhfələrinə görə fərqlənən digər hakimiyyət qolu kimi Parlamentə olan etibar isə 38.8% civarında olub ($X^2(12)=164.341$, $p<0.01$).
- Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər ilə əhəmiyyətli statistik əlaqənin (korrelyasiyanın) təsbit edildiyi istiqamət kimi xarici siyasət xüsusi əhəmiyyət kəsb edir ($r=0.555$ ($p<0.01$)).




## İQTİSADİ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

### Prezidentin fəaliyyət təqvimi

***28 aprel 2020.*** *İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında videokonfrans keçirilib.- https://president.az/articles/37305*

***15 may 2020.*** *CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib. - https://president.az/articles/38357*

***22 may 2020.*** *"Signify" şirkətinin təşəbbüsü ilə İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib. - https://president.az/articles/38689*

***01 iyun 2020.*** *Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu bankın rəhbərləri arasında videokonfrans keçirilib. - https://president.az/articles/38904*

***16 iyun 2020.*** *İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib. - https://president.az/articles/39176*

***17 iyun 2020.*** *İlham Əliyevlə Dünya Bankının yeni vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib. - https://president.az/articles/39204*

### Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirləri necə qiymətləndirirsiniz?




### Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyətinə münasibət bildirənlərin profili



## PANDEMİYA İLƏ MÜBARİZƏ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Prezidentin fəaliyyət təqvimi**

***19 mart 2020.*** *Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36228*

***14 aprel 2020.*** *Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.- https://president.az/articles/36518*

***14 aprel 2020.*** *Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/articles/36524*

***17 aprel 2020.*** *İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib. - https://president.az/articles/36654*

**Prezidentin pandemiya ilə mübarizə çərçivəsində fəaliyyətini necə qiymətləndirirsiniz?**




**Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitini yetərli hesab edirsinizmi?**




Antiböhran idarəçiliyi dövlət tərəfindən böhranın dərinləşməsinin qarşısının alınması, böhranlı vəziyyətin aradan qaldırılması və təsirlərinin minimum səviyyədə saxlanılması mərhələlərində həyata keçirilən bütün tədbirləri əhatə edir. Belə ki, dövlətin böhran təhlükəsini əvvəlcədən görməsi, böhran siqnalına çevik reaksiya verməsi, böhranlı vəziyyətə nəzarəti təmin edən operativ idarəetmə və informasiya-kommunikasiya mexanizmini qurması, neqativ təsirləri minimallaşdırmaq məqsədilə qabaqlayıcı və sosial-iqtisadi dəstək tədbirləri həyata keçirməsi və sonda ümumi nəticələri dəyərləndirməsi böhranlı vəziyyətin idarəolunması istiqamətində ən vacib mərhələlər hesab edilir.

Bu mənada Azərbaycan dövləti koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələn böhranlı vəziyyətin ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması istiqamətində nümunəvi antiböhran strategiyası hazırlayıb və həyata keçirib. Dövlət başçısının “Biz birlikdə güclüyük!” şüarı ətrafında cəmiyyətin bütün təbəqələri və resursları böhranlı vəziyyətə qarşı səfərbər olunub və milli həmrəylik nümayiş etdirib.

- Ümumiyyətlə, dövlətin pandemiya ilə mübarizə siyasətinin müsbət qiymətləndirilməsinə bu istiqamətdə fəaliyyət göstərən şəxs və qurumlar içərisində ölkə Prezidentinin fəaliyyəti əhəmiyyətli dərəcədə təsir göstərir. Dolayısı ilə bu iki göstərici arasında statistik əhəmiyyətli korrelyasiya təsbit edilib ($r=0.477$, $p<0.01$).

Dövlət başçısının 19 mart tarixli sərəncamı ilə pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi məqsədilə Nazirlər Kabinetinə 1.0 (bir) milyard manat vəsait ayrılıb, daha sonra bu vəsaitin həcmi 3.5 milyard manata çatdırılıb. Dövlət başçısının müvafiq sərəncamının icrası ilə bağlı Tədbirlər Planında 2.5 milyon vətəndaşı əhatə edən 4 istiqamət üzrə 10 tədbir əksini tapıb.

Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərinə ictimai münasibətin öyrənilməsi də sorğu çərçivəsində nəzərə alınıb. Belə ki, aprel ayında keçirilən sorğu zamanı ümumi respondentlərin 55.6%-i ayrılmış vəsaitləri yetərli hesab etdiyini bildirib. 24.0% respondent isə əks mövqedən çıxış edib. Xüsusilə qeyd etmək istərdik ki, respondentlərin 20.4%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

- Sözügedən istiqamətdə dövlətin antiböhran siyasətinin icrasını müsbət qiymətləndirən respondent qrupunun (88.4%) 71.7%-i COVID-19 virusuna yoluxmaqdan əhəmiyyətli dərəcədə qorxduğunu bildirib. Maraqlı məqam ondan ibarətdir ki, əks mövqedən çıxış edən respondentlərin 7.9%-nin tərkibində virusa yoluxmaqdan qorxduğunu bəyan edənlər sadəcə 56.4% təşkil edir.

- Özəl sektorda çalışan respondentlərin 40.5%-i pandemiya ilə mübarizəyə yönəldilmiş maliyyə vəsaitlərini yetərli hesab etdiyi halda, 38.1% respondent tam əks mövqedən çıxış edib. Rəyi öyrənilən 21.4% özəl sektor nümayəndəsi isə sözügedən sahədə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Fərdi əmək fəaliyyəti ilə məşğul olan respondentlərin 46.4%-i ayrılmış vəsaitləri yetərli hesab etdiyi halda, 42.3% respondent əks mövqedən çıxış edib.

- Dövlət sektorunda çalışanların, eləcə də təqaüdçülərin analoji suala mövqeyi isə aşağıdakı kimi xarakterizə olunur: Belə ki, sorğu üzrə dövlət sektorunda çalışan, həmçinin təqaü-

dçü respondentlərin müvafiq olaraq 58.5%-i və 68.2%-i ayrılmış maliyyə resurslarını yetərli hesab edib.

Ümumilikdə götürdükdə pandemiya ilə mübarizə çərçivəsində hayata keçirilən milli strategiyalar ilə yanaşı beynəlxalq səviyyədə antiböhran strategiyalarının reallaşdırılması da xüsusi əhəmiyyət kəsb edir. Bu məsələ ilə bağlı 2008-ci il maliyyə-iqtisadi böhranı çərçivəsindəki səfərbərliyi xüsusilə qeyd edə bilərik.

Ölkəmiz COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində kifayət qədər əhəmiyyətli regional və eləcə də beynəlxalq təşəbbüslərdən çıxış edib. Sorğu çərçivəsində respondentlərin bu məsələlərə mövqeyi də öyrənilib. Belə ki, rəyi öyrənilənlərin 68.2%-i ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar həcmində vəsait ayırmasını müsbət qiymətləndirdiyi halda, rəyi öyrənilənlərin sadəcə 5%-i əks mövqedən çıxış edib. Maraqlı məqamlardan biri də onunla bağlıdır ki, ümumi respondentlərin 26.8%-i bu barədə məlumatlı olmadığını qeyd edib.

Eyni zamanda Azərbaycanın koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Türk Şurası ölkələri ilə görüş təşəbbüsündən çıxış etməsinə münasibət öyrənilib. Əldə olunmuş nəticələri aşağıdakı kimi xarakterizə edə bilərik: ümumi respondentlərin 53.6%-i sözügedən təşəbbüsü müsbət, 1.2%-i isə mənfi qiymətləndirdiyi halda, 45.2% respondent bu barədə məlumatlı olmadığını qeyd edib.

Ölkə rəhbərliyinin regional və beynəlxalq inteqrasiya birliklərinə üzv ölkələrin pandemiya ilə mübarizə çərçivəsində görüş və beynəlxalq həmrəylik təşəbbüslərinə ictimai rəy öyrənilib.

- Azərbaycanın Qoşulmama Hərəkatına üzv olan ölkələrin iştirakı ilə pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünü rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi (60.9%) müsbət qiymətləndirdiyi halda, 36.5% respondent bu təşəbbüs barədə məlumatının olmadığını qeyd edib.
- Analoji vəziyyət Şərq Tərəfdaşlığı ölkələrinin pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünün qiymətləndirilməsində qeydə alınıb. Belə ki, respondentlərin 59.4%-i müsbət mövqedən çıxış etdiyi halda, 38.4%-i məlumatsız olduğunu bildirib.

**Prezidentin fəaliyyət təqvimi**

***04 may 2020.*** *İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib.* *https://president.az/articles/37705*

***18 iyun 2020.*** *İlham Əliyev Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində iştirak edib.* *https://president.az/articles/39235*

***10 aprel 2020.*** *İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib.* *https://president.az/articles/36412*

**Pandemiya ilə qlobal mübarizə çərçivəsində Azərbaycanın iştirakının qiymətləndirilməsi**



## PREZİDENTƏ OLAN İNAM VƏ ETİMADIN DİNAMİKASI

**Son 3 ayda Prezidentə olan inam və etimadınız necə dəyişib?**




**Aşağıdakı qurum və təşkilatlara nə dərəcədə etibar edirsiniz?**




**Prezidentə inam və etimad bildirənlərin profili**




Sorğu nəticələrinin təhlili əsasında qeyd edə bilərik ki, respondentlərin mütləq əksəriyyətinin Prezidentə olan inam və etimadı yüksək olaraq qalır. Belə ki, rəyi öyrənilənlərin 70.0%-i inam və etmadının yüksək olduğunu, 24.6% respondent Prezidentə olan inam və etimadının artdığını qeyd edib. İnam və etimadının azaldığını bəyan edən respondentlər 2.6%, aşağı olaraq qaldığını bəyan edənlər isə 1.7%-lik göstərici ilə xarakterizə edilə bilər. Xüsusilə qeyd etmək lazımdır ki, respondentlərin yalnız 1.1%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiklərini bəyan edib.

Prezidentə olan inam və etimadının artdığını bəyan edən 24.6% respondentin rəyində digərləri ilə müqayisədə çox səmərəli qiymətləndirilən fəaliyyət istiqaməti kimi ordu quruculuğu 82.0%-lik göstərici ilə ilk pillədə qərarlaşıb. Bu respondent seqmentinin müqayisə etibarilə ən az müsbət qiymətləndirdiyi fəaliyyət istiqaməti kimi isə 55.4%-lik göstərici ilə məhkəmə islahatları çıxış edir.

- Ölkə başçısına olan inam və etimadının yüksək olaraq qaldığını qeyd edən 70.0% respondentin müvafiq fəaliyyət istiqamətləri üzrə ən müsbət və müqayisə etibarilə ən az müsbət qiymətləndirdiyi indikatorlar kimi ordu quruculuğu (66.1%) və səhiyyə sisteminin modernləşdirilməsi (41.6%) təsbit edilib.

- İnam və etimadının dəyişməyib, aşağı qaldığı qənaətindən çıxış edən 1.7% respondentin rəylərinin təhlili əsasında qeyd edə bilərik ki, 38.9%-lik göstərici ilə ordu quruculuğu istiqamətində görülən işlər ən çox rəğbətlə qarşılandığı halda, ən az müsbət qiymətləndirilən fəaliyyət istiqaməti kimi regional inkişafın təmin edilməsi istiqmətində həyata keçirilən tədbirlər (5.6%) çıxış edir.

- Prezidentə olan inam və etimadının azaldığını bildirən 2.6% respondentin sorğu çərçivəsində analoji kontekstdən mövqelərinə diqqət etsək görərik ki, ən çox müsbət qiymətləndirilən faktor 34.5%-lik göstərici ilə ictimai-siyasi sabitlik çıxış etdiyi halda, ən az müsbət qiymətləndirilən fəaliyyət istiqaməti kimi isə kadr islahatları (8.0%) çıxış edir.

- Dövlət başçısına inam və etimadının yüksək olduğu təsbit edilmiş respondentlərin 40.7%-i hesab edir ki, Prezident yerlərdə baş verənlər barədə məlumatlıdır, 4.8% respondent isə ölkə başçısının sözügedən istiqamətdə məlumatlı olmadığı düşüncəsindədir.

- Əks mövqedən çıxış edən respondentlərin 18.9%-i dövlət başçısının yerlərdə baş verənlər barədə əhəmiyyətli dərəcədə məlumatlı olduğunu qeyd etdiyi halda, 24.5% respondent hesab edir ki, məlumatlılıq səviyyəsi aşağıdır ($X^2(3)=40.873$, $p<0.01$).



Tədqiqat dövründə Prezidentə olan inam və etimadının artdığını bəyan edən 24.6% respondentin 87.1%-i dövlət başçısının fəaliyyəti ilə bağlı məlumatları televiziyadan, 47.7%-i sosial şəbəkələrdən və nəhayət, 9.5%-i ətrafdakı insanlardan əldə etdiyini bildirib. Digər tərəfdən inam və etimad səviyyəsinin azaldığını qeyd edən 2.6% respondentin 59.4%-i sözügedən istiqamətdə məlumatları televiziyadan, 56.3%-i sosial şəbəkələrdən və nəhayət, 15.6%-i ətrafdakı insanlardan aldığını bildirib ($X^2(32)=124.547$, $p<0.01$).

- Prezidentin fəaliyyəti ilə bağlı məlumatları əsasən televiziyadan alan 81.1% respondentin 93.7%-i dövlət başçısının yerli kanallara verdiyi müsahibələri izlədiyini qeyd edib ($X^2(8)=276.166$, $p<0.01$).
- Ümumiyyətlə, Prezidentin yerli kanallara verdiyi müsahibələri izləyən 86.4% respondentin 81.6%-i bunu çox yaxşı qiymətləndirdiyi halda, 1.7% respondent əks mövqedən çıxış edib.
- Prezidentin müvafiq dövlət qurumlarının rəhbərləri ilə keçirdiyi görüşlərin KİV-də yayımlanmasını səmərəli hesab edən 80.6% respondentin 84.5%-nin ölkə başçısının fəaliyyəti ilə bağlı məlumatları televiziyadan, 49.8%-nin isə sosial şəbəkələrdən əldə etdiyi ictimai rəy sorğusunun nəticələri əsasında təsbit edilib. Digər tərəfdən sözügedən istiqamətdə həyata keçirilən təşəbbüslərin müvafiq nəticələrini məqbul hesab etməyən 13.6% respondentin 63.3%-i analoji məlumatları televiziyadan əldə etdiyi halda, sosial şəbəkələri əsas informasiya mənbəyi kimi qiymətləndirənlər isə sözügedən respondentlərin 56.9%-ni təşkil edir ($X^2(16)=71.815$, $p<0.01$).
- Ölkə başçısının fəaliyyəti ilə bağlı məlumatları Prezidentin rəsmi internet səhifəsindən (prezident.az) əldə edən 6.9% respondentin 50.6%-i 18-35 yaş aralığında, 57.8%-i ali təhsilli və nəhayət, 49.4%-i şəhər respondentlərindən ibarətdir. Eyni zamanda, sözügedən istiqamətdə əsas məlumatları Prezidentin rəsmi sosial media hesablarından əldə edən 6.2% respondentin 52.0%-i 18-35 yaş aralığında, 48.0% orta təhsilli və nəhayət, 49.3%-i şəhər respondentlərindən ibarətdir.




**Prezidentin fəaliyyəti ilə bağlı məlumatları əsasən haradan əldə edirsiniz?**




**Prezidentin yerli kanallara verdiyi müsahibələrə baxırsınızmı və bunu necə qiymətləndirirsiniz?**




**Sizcə, Prezidentin müvafiq qurumların rəhbərləri və nazirlərlə keçirdiyi görüşlərin KİV-də verilməsi onların işinin səmərəli təşkilinə təsir edəcəkmi?**



# NƏTİCƏ

İctimai rəy sorğusunun nəticələrinə əsaslanaraq qeyd edə bilərik ki, respondentlərin mütləq əksəriyyətinin Prezidentə olan inam və etimadı yüksək olaraq qalır. Belə ki, rəyi öyrənilənlərin 70.0%-i inam və etmadının dəyişməyərək yüksək olduğunu bəyan etsə də, 24.6% respondent Prezidentə olan inam və etimadının artdığını birmənalı şəkildə qeyd edib. Digər tərəfdən Prezidentin pandemiya ilə mübarizə çərçivəsində fəaliyyətini respondentlərin 72.8%-i çox səmərəli, 22.0%-i isə əsasən səmərəli qiymətləndirib.

- Prezidentin ordu quruculuğu istiqamətindəki fəaliyyətinə ictimai rəyin təhlili bizə onu deməyə əsas verir ki, respondentlərin mütləq əksəriyyəti, 70.7% çox səmərəli, eyni zamanda 24.6% əsasən səmərəli qiymətləndirdiyi halda, yalnız 2.5% respondent əks mövqedən çıxış edib. Ümumi respondentlərin 2.2%-i isə bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

- Ümumiyyətlə, Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi istiqamətində gördüyü işlər respondentlər tərəfindən digər fəaliyyət istiqamətləri ilə müqayisədə 70.7%-lik göstərici ilə daha yüksək qiymətləndirilib.

- Prezidentin kadr islahatları istiqamətindəki fəaliyyətinə yönəlik sorğu nəticələrinin təhlili bizə onu deməyə əsas verir ki, rəyi öyrənilənlərin 53.9%-i çox səmərəli eləcə də 32.0%-i əsasən səmərəli mövqedən çıxış etdiyi halda, 6.5% respondent isə mənfi rəy sərgiləyib.

- Dövlət başçısının kadr islahatları istiqamətində həyata keçirdiyi yeni kursu çox səmərəli qiymətləndirən 53.9% respondentin 81.2%-i korrupsiya ilə mübarizə sahəsində Prezidentin təşəbbüslərini çox müsbət qiymətləndirərək prosesi dəstəklədiyini bildirib.

- Korrupsiyaya qarşı mübarizə istiqamətində ümumi situasiyaya nəzər salsaq görərik ki, rəyi öyrənilən respondentlərin 56.1%-i görülən işləri çox səmərəli, 27.2%-i isə əsasən səmərəli hesab etdiyi halda, 12.3% respondent bu istiqamətdə görülən işləri mənfi dəyərləndirib. Respondentlərin 4.4%-i isə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

- Prezidentə inam və etimadının artdığını vurğulayan respondentlərin (24.6%) 56.5%-i eyni zamanda ölkə başçısının korrupsiya ilə mübarizə çərçivəsində gördüyü nəticəəsaslı tədbirləri müsbət qiymətləndirib. Prezidentə olan inam və etimadının azaldığını bəyan edən 2.6% respondentin analoji istiqamətdəki mövqeyi 20.7% səviyyəsində təsbit edilib.

- İctimai-siyasi sabitlik istiqamətdə dövlət başçısının fəaliyyətinə ictimai münasibətə nəzər saldıqda sorğu iştirakçılarının 59.0%-nin çox səmərəli, 32.1%-i əsasən səmərəli movqedən çıxış etdiyini təsbit etmiş oluruq. 5.3% respondent isə mənfi mövqedən çıxış edib. Qeyd etmək istərdik ki, rəyi öyrənilənlərin 3.6%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

- Prezidentin ictimai-siyasi sabitlik istiqamətində həyata keçirdiyi tədbirləri çox səmərəli qiymətləndirən 59.0% respondentin 85.0%-ə qədəri korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi proseslərinə müsbət mövqe sərgiləyib.

- Cari dövr ərzində dövlət başçısının təhlükəsizlik və xarici siyasət istiqamətindəki fəaliyyətinin ictimai rəy əsasında qiymətləndirilməsindən əldə olunan nəticələri aşağıdakı kimi xarakterizə edə bilərik. Rəyi öyrənilənlərin 54.0%-i bu istiqamətdə görülən işləri çox səmərəli, 28.9%-i isə əsasən səmərəli qiymətləndirdikləri halda, 6.45% respondent əks mövqedən çıxış edib. Digər maraqlı bir məqam kimi isə 10.7% respondentin sözügedən istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirməsi ilə bağlıdır.

- Prezidentin təhlükəsizlik və xarici siyasət istiqamətindəki fəaliyyətini çox səmərəli qiymətləndirən 54.0% respondentin 79.7%-i həmçinin beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirləri müsbət dəyərləndirib.

- Səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində rəyi öyrənilən respondentlərin 46.7%-i görülmüş işləri çox səmərəli qiymətləndirdikləri halda, 32.6%-i isə əsasən səmərəli qiymətləndirib. 17.1% respondent əks mövqedən çıxış edib. Ümumi respondentlərin sadəcə 3.6%-i bu istiqamətdə fikir bildirməkdən çəkinib.

- Prezidentə inam və etimadının artdığını bəyan edən 24.6% respondentin 57.5%-i səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində görülən işləri müsbət qiymətləndirib. Digər tərəfdən Prezidentə olan inam və etimadının azaldığını bildirən respondentlərin isə 22.2%-ə qədəri analoji istiqamətdə görülən işləri müsbət dəyərləndirib.

- Təhlillər göstərir ki, Prezidentin hüquq-mühafizə sisteminin modernləşdirilməsi istiqamətindəki fəaliyyətindən məmnunluğunu ifadə edən respondentlər ümumi rəyi soruşulanların əhəmiyyətli hissəsini (52.6% çox səmərəli, 32.0% əsasən səmərəli) təşkil edir. Əks mövqedən rəy bildirən respondentlər isə 7.35%-lik seqmenti özündə əks etdirir. Qeyd etmək lazımdır ki, təqribən bir o qədər respondent (8.2%) isə bu istiqamətdə görülən işlərlə bağlı fikir bildirməkdə çətinlik çəkib.

- Digər tərəfdən ölkə başçısının hüquq-mühafizə orqanlarının modernləşdirilməsi istiqamətində fəaliyyətini müsbət qiymətləndirən respondentlərin mütləq əksəriyyəti Prezidentin məhkəmə sistemindəki islahat təşəbbüslərini əhəmiyyətli dərəcədə (78.7%) dəstəklədiyini bildirib. Sözügedən istiqamətdə həyata keçirilən tədbirləri mənfi qiymətləndirən 7.3% respondentin isə 5.3%-ə qədəri məhkəmə islahatlarını müsbət dəyərləndirib.

- Məhkəmə sisteminin modernləşdirilməsi istiqamətində ümumi situasiyaya diqqət etdikdə rəyi öyrənilənlərin 37.6%-i bu istiqamətdə görülən işləri

çox səmərəli, 30.5%-i isə əsasən səmərəli qiymətləndirib. Respondentlərin sadəcə 9.9%-i əks mövqedən fikir bildirsə də, 22.0%-i bu məsələ ilə bağlı mövqe bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Daha bir strateji məqam ondan ibarətdir ki, məhkəmə sisteminin modernləşdirilməsi təşəbbüslərini çox səmərəli qiymətləndirən 37.6% respondentin 47.8%-i cari dövr üçün məhkəmələrə etibar etdiyini bildirdiyi halda, 28.7% respondent əsasən etibar etdiyini qeyd edib. Qeyd etmək istərdik ki, Sosial Tədqiqatlar Mərkəzinin əvvəlki sorğularında bu göstərici 49.0% civarında təsbit edilib.

- Sosial rifahın təmin edilməsi ilə əlaqədar sorğu nəticələrinin ümumi dəyərləndirilməsi bizə onu deməyə əsas verir ki, respondentlərin 61.1%-i bu istiqamətdə görülən işləri və təşəbbüsləri çox səmərəli dəyərləndirdikləri halda, 29.9%-i əsasən səmərəli qiymətləndirib. Ümumi respondentlərin sadəcə 6.7%-i əks mövqedən çıxış edib.

- Bu siyasət təşəbbüslərini müsbət perspektivdən dəyərləndirən rəyi öyrənilənlərin 40.1%-i yerli icra hakimiyyəti orqanlarına etibar etməsi qənaətindən çıxış edib ($X^2(12)=138$. Digər tərəfdən isə eyni respondent seqmenti Prezidentin müvafiq qurumların rəhbərləri və nazirlərlə keçirdiyi görüşlərin KİV-də işıqlandırılmasının onların işinin səmərəli təşkilinə əhəmiyyətli şəkildə müsbət təsir göstərdiyi (87.0%) fikrini təsdiq edib.

- İqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən Prezident təşəbbüsləri 50.7% respondent tərəfindən çox səmərəli qiymətləndirildiyi halda, 37.1% rəyi öyrənilən tərəfindən əsasən səmərəli dəyərləndirilib. Digər tərəfdən 6.4% respondent bu istiqamətdə görülən işləri mənfi, 5.9% respondent isə bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Sözügedən istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirləri və strateji konseptləri çox səmərəli dəyərləndirən respondentlərin 42.9%-i Nazirlər Kabinetinin bu istiqamətdə reallaşdırdığı tamamlayıcı təşəbbüsləri təqdirəlayiq qiymətləndirib.

- Rəy sorğusunun ilkin nəticələrinə əsasən regional inkişafın təmin edilməsi istiqamətində rəyi öyrənilənlərin 50.8%-i bu istiqamətdə Prezidentin təşəbbüslərini olduqca səmərəli qiymətləndirdiyi halda, 35.2% respondent əsasən səmərəli mövqedən çıxış edib. 6.4% respondent isə əks mövqedən çıxış edib. Digər tərəfdən respondentlərin 5.9%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Prezidentin regional inkişaf istiqamətindəki fəaliyyətini yüksək dəyərləndirən respondentlərin 87.2%-i korrupsiya ilə mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi faktlarını müsbət qiymətləndirib.

- Sorğunun nəticələrinin təhlili əsasında qeyd edə bilərik ki, rəyi öyrənilənlərin 53.4%-i Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirləri çox səmərəli, 31.1%-i isə əsasən səmərəli qiymətləndirib. Əks mövqedən çıxış edən respondentlər isə ümumi rəyi soruşulanların 4.0%-ni təşkil edir. 11.6% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini vurğulayıb.

- Prezidentin beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər ilə əhəmiyyətli statistik əlaqənin (korrelyasiyanın) təsbit edildiyi istiqamət kimi xarici siyasət xüsusi əhəmiyyət kəsb edir.

- Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərinə ictimai münasibətin öyrənilməsi də sorğu çərçivəsində nəzərə alınıb. Belə ki, aprel ayında keçirilən sorğu zamanı ümumi respondentlərin 55.6%-i ayrılmış vəsaitləri yetərli hesab etdiyini bildirib. 24.0% respondent isə əks mövqedən çıxış edib. Xüsusilə qeyd etmək istərdik ki, respondentlərin 20.4%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

- Sözügedən istiqamətdə dövlətin antiböhran siyasətinin icrasını müsbət qiymətləndirən respondent qrupunun (88.4%) 71.7%-i COVID-19 virusuna yoluxmaqdan əhəmiyyətli dərəcədə qorxduğunu bildirib. Maraqlı məqam ondan ibarətdir ki, əks mövqedən çıxış edən respondentlərin 7.9%-nin tərkibində virusa yoluxmaqdan qorxduğunu bəyan edənlər sadəcə 56.4% təşkil edir.

- Prezidentin fəaliyyəti ilə bağlı məlumatları əsasən televiziyadan alan 81.1% respondentin 93.7%-i dövlət başçısının yerli kanallara verdiyi müsahibələri izlədiyini qeyd edib.

- Ölkə başçısının fəaliyyəti ilə bağlı məlumatları Prezidentin rəsmi internet səhifəsindən (prezident.az) əldə edən 6.9% respondentin 50.6%-i 18-35 yaş aralığında, 57.8%-i ali təhsilli və nəhayət, 49.4%-i şəhər respondentlərindən ibarətdir. Eyni zamanda, sözügedən istiqamətdə əsas məlumatları Prezidentin rəsmi sosial media hesablarından əldə edən 6.2% respondentin 52.0%-i 18-35 yaş aralığında, 48.0% orta təhsilli və nəhayət, 49.3%-i şəhər respondentlərindən ibarətdir.

QEYDLƏR

QEYDLƏR

QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
info@stm.az www.stm.az